Birincilikdə 18 çəki dərəcəsi 14-15 yaşlı yeniyetmə boksçulardan ibarət 16 komanda iştirak edib. Ölkə miqyaslı yarışa ümumilikdə 170 boksçu qatılıb.

5 gün davam edən mübarizədən sonra 1 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi ümumi komanda hesabında yarışın qalibi olub. İkinci yeri "Təhsil" Respublika İdman Mərkəzinin Gəncə filialı, üçüncü yeri Neftçala rayon Uşaq-Gənclər İdman Məktəbi tutub. Bundan başqa hər bir çəki üzrə şəxsi hesabda I, II və III yerləri tutan boksçular da müəyyənləşdirilib.

Qaliblər Təhsil Nazirliyinin diplomları və medalları ilə mükafatlandırıblar. İlk 3 yeri tutan komandalara kuboklar təqdim olunub.